# Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədilə Mərkəzi Seçki Komissiyası nəzdində yaradılmış ekspert qrupunun üzvü İradə Hacıyevanın 2009-cu ilin dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində bələdiyyə üzvlüyünə namizəd Cabbarov Akif Sadıxbala oğlu və Qədirova Şəlalə Atababa qızının 568 saylı müraciətinin araşdırılmasna dair

**R Ə Y İ**

*Bakı şəhəri*

*09 yanvar 2010-cu il, saat 12.00*

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar 45 saylı Abşeron seçki dairəsi üzrə Görədil bələdiyyəsinin üzvlüyünə namizədlikləri Azərbaycan Ümid Partiyası tərəfindən irəli sürülmüş Cabbarov Akif Sadıxbala oğlu və Qədirova Şəlalə Atababa qızı 07 yanvar 2010-cu il tarixdə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək, 24 dekabr 2009-cu il tarixdə adı çəkilən seçki dairəsinin dairə seçki komissiyasına təqdim edilmiş səsvermə günü 35 saylı seçki məntəqəsində baş vermiş bəzi qanun pozuntuları ilə əlaqədar müraciətin DSK tərəfindən mahiyyəti üzrə araşdırılmamasını və tədbir görülməməsini bildirmiş və qanunla müəyyən edilmiş qaydada dairə seçki komissiyasının hərəkətsizliyinə dair müvafiq qərarın qəbul edilməsini xahiş etmişlər.

Şikayət Azərbaycan Respublikasının Seçki Məcəlləsinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydalara haqqında Təlimat" a uyğun tərtib edildiyindən araşdırmaya qəbul edilmişdir.

Şikayətə əlavə olunmuş səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyası protokolunun surəti komissiya üzvləri tərəfindən nə imzalanmış, nə də möhürlə təsdiq edilmişdir.

Araşdırma prosesində şikayətçilərlə əlaqə saxlanılmış (tel.(070) 685 58 75), onlara əlavə sübutlar təqdim etmək və araşdırmada iştirak etmək hüquqları barədə məlumat verilmişdir. Şikayətçi Ş.A.Qədirova bildirmişdir ki, şikayətdə göstərilən məlumatlardan başqa əlavə olaraq təqdim edəcəkləri sübutları yoxdur.

Araşdırma nəticəsində müəyyən edilmişdir ki, 24 dekabr 2009-cu il tarxidə 45 saylı Abşeron seçki dairəsinin dairə seçki komissiyasına təqdim edilmiş müraciət Azərbaycan Respublikasının Seçki Məcəlləsinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki

komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat" a uyğun olaraq araşdırılması üçün DSK nəzdində ekspert qrupunun üzvünə təqdim edilmişdir. 2009-cu il dekabrın 26-da ekspert qrupunun üzvü araşdırma müddətinin uzadılması barədə vəsatət qaldırmış və vəsatət dairə seçki komissiyasının iclasında baxılaraq təmin edilmişdir.

İclasın keçiriləcəyi vaxt barədə xəbərdar etməklə əlaqədar 2009-cu il dekabrın 27-də ekspert qrupunun üzvü müvafiq tədbirlər görmüşdür. Dairə seçki komissiyası nəzdində ekspert qrupu üzvünün əldə etdiyi məlumata əsasən, səsvermə günü 35 saylı seçki məntəqəsində hər hansı bir ciddi qanun pozuntusu baş verməmiş və bununla bağlı komissiyaya şifahi və ya yazılı şikayət daxil olmamışdır. Bu da məntəqə seçki komissiyası üzvlərinin, habelə səsvermə prosesini işləmiş müşahidəçilərin yazılı izahatları ilə təsdiq edilmişdir. 2009-cu il dekabrın 28-də dairə seçki komissiyası şikayətə mahiyyəti üzrə baxmış, müraciətin əsassız olduğu üçün təmin edilməməsi barədə qərar qəbul etmiş və qərarın surətini şikayətçilərə göndərmişdir. Eyni zamanda qərarın izahına dair məktub da şikayətçilərə təqdim edilmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112, 112-1, 112-1.5.4-ci və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. 45 saylı Abşeron seçki dairəsi üzrə Görədil bələdiyyəsinin üzvlüyünə namizədlər Cabbarov Akif Sadıxbala oğlu və Qədirova Şəlalə Atababa qızının müraciəti əsassız olduğundan təmin edilməməlidir.

2. Rəy qəbul edildiyi andan 24 saat ərzində dərc edilsin (Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilsin) və surəti şikayətçiyə göndərilsin.

Azərbaycan Respublikası Mərkəzi
Seçki Komissiyası nəzdində
ekspert qrupunun üzvü İradə Hacıyeva